

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 177 (21.329)

10 sentyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paskal Abişeri fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.

Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında dostluq münasibətlərinin mövcud olduğunu deyən dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd edib, bu səfərlər və görüşlər zamanı məhsuldar danışıqların aparıldığını vurğulayıb. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələrdə, o cümlədən iqtisadi, biznes, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə genişləndirilməsindən məmnunluğunu ifadə edib.

Səfir Paskal Abişer ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurlu inkişafına toxunaraq iqtisadi sahədə həyata keçirilən birgə layihələrin bu əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verdiyini bildirib.



## Azərbaycanı xilas edən insan

***Rusiyada nəşr edilən "Mir i politika" (MP) adlı beynəlxalq siyasi jurnalda Rusiya Federasiyası Yazıçılar İttifaqının üzvü Nina Puşkovanın "Azərbaycanı xilas edən insan. Bakıdan subyektiv qeydlər" sərlövhəli məqaləsi dərc olunub. Material Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr edilib. Müəllif bu görkəmli siyasi xadimin xilaskar missiyası barədə fikirlərini oxucularla bölüşür, titanik fəaliyyəti sayəsində Azərbaycanın bir sıra bəlalardan xilas olmasına və ölkəmizin bugünkü sürətli inkişafının möhkəm təməlinin qoyulmasına, onun regionda lider dövlətə çevrilməsinə imkan yaradan bu dahi şəxsiyyətin fenomenini anlamağa çalışır.***




Müəllif yazır: "Dəfələrlə Bakıda olmuşam və kiçik mağazaların vitrinlərindən tutmuş ayaqqabı emalatxanalarına qədər hər yerdə Heydər Əliyevin portretlərini görmüşəm. Mən anlamaq istəyirdim: necə və nə üçün belə olub ki, keçmiş Siyasi Büro üzvü, Qorbaçovun yenidənqurma dövründə istefaya göndərilən, bir növ, kölgədə qalan bu insan birdən-birə yenidən öz xalqına lazım olub və müasir Azərbaycanın qurucusuna çevrilib?!

Bu il may ayında, Heydər Əliyevin doğum gününün növbəti ildönümündən az sonra yenidən Bakıda oldum. Həmin günlərdə azərbaycanlı tarixçilərlə, fotoqraflarla, Əliyevin şəxsi mühafizə dəstəsinin rəisi, rejissorlar və yazıçılarla görüşdüm.

Buna layiq olmayan insana fikrən abidə ucaltmaq mümkün deyil. Yekaterinburqda Yeltsinin abidəsinin açılışında ən çoxu 100-150 nəfər toplaşmışdı, özü də bu adamlar əsasən Moskvadan gələnlər idi. Sonra isə bu abidə barədə yalnız bir dəfə eşitdik – onun üstünə rəng tökmüşdülər. Heydər Əliyevə isə Azərbaycanda əsas abidə insanların xatirəsindədir və bu abidəni nə uçurtmaq olar, nə də üstünə rəng tökmək.

Elə adamlar var ki, adları bütün dünyada məşhurdur. Sinqapur Prezidenti Li Kuan Yu, Fransa Prezidenti General de Qoll, Fidel Kastro, Nelson Mandela belələrindəndir. Bu siyahı o qədər də uzun deyil. Lakin Azərbaycanın tarixini bilsələr bu siyahıya Heydər Əliyevin də adını əlavə etmək olar. Respublikada onu ölkənin parçalanmasına və ya avantürist niyyətlərin qurbanına çevrilməsinə imkan verməyən insan, bu cür siyasətçi hesab edirlər".

Müəllif öz materialında Heydər Əliyevin keçmiş Sovet İttifaqının rəhbərlərindən biri vəzifəsində fəaliyyətindən söhbət açaraq qeyd edir ki, o, adi idarəçi deyildi. N.Puşkova xüsusi vurğulayır ki, bir sıra müasir menecerlərin düşündüyündən fərqli olaraq, Heydər Əliyevin nəzərində insanlar və onların taleyi əhəmiyyətsiz məsələ deyildi. O yazır: "Həmin illərdə Baykal-Amur Magistralının (BAM) tikintisində fəal iş gedirdi, daha doğrusu, bu tikintidə işlər yerində sayırdı. Burada iş şəraiti hədsiz ağır, hava şəraiti dözülməz idi. O diyarda işləmək üçün insanlar çox dözümlü olmalı idi. Bu insanların qüvvəsi tükənəndə, insan materialı bu şəraitə davam gətirməyəndə oraya çox vaxt tələbə briqadalarını, gəncləri, bir sözlə, gənclik həvəsindən başqa heç nəyi – nə təcrübəsi, nə ixtisası olmayan adamları göndərirdilər.

Ümumiyyətlə, tikinti yerində sayırdı. Hesabat vermək üçün heç bir əsas yox idi. Vəziyyəti araşdırmaq üçün Heydər Əliyevi oraya göndərdilər.

O, ittifaq nazirlərini və diyar rəhbərlərini topladı, əyninə sırıqlı gödəkcə, ayağına uzunboğaz çəkmə geyib palçıqlı yollarla, bir növ, məhək daşı sayılan məşhur BAM tunelinə yollandı – özü də xidməti maşında yox, UAZ avtomobillərində. Nazirlər Soveti sədrinin birinci müavini yerli məmurlarla bərabər metal qəfəslərdə içərisinə su dolmuş, bəzi yerləri uçulub tökülən, mühafizə baxımından ağlasığmaz dərəcədə təhlükəli şaxtaya endi. Heydər Əliyevin şəxsi mühafizə dəstəsinin rəhbəri Aleksandr İvanov o günləri xatırlayaraq deyir: "Orada biz cavanlar üçün soyuq və qorxulu idi, Əliyev isə elə bil qəsdən hey irəli gedir, bütün rəisləri arxasınca çəkib aparırdı. O istəyirdi ki, insanların hansı şəraitdə işlədiklərini hamı hiss etsin. Şaxtaya enəndən sonra keçirdiyi müşavirədə isə soruşdu: "Hə, necə hesab edirsiniz, bu kurort şəraiti nəzərə alınsa, şaxtaçıların əməkhaqqı necə olmalıdır?"

Məqalədə deyilir ki, Heydər Əliyev 1986-cı ildə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən 22 nazirlik və idarə, o cümlədən o vaxt heç bir adı olmayan, indi Fövqəladə Hallar Nazirliyi (FHN) adlanan idarə də onun nəzarəti altında idi. Müəllif bununla əlaqədar içərisində 1234 nəfər olan "Admiral Naximov" laynerinin suya batması ilə bağlı dəhşətli faciəni xatırlayaraq yazır: "Hakimiyyət orqanları bu hadisəyə təcili münasibət bildirməli idi. Heydər Əliyevi Novorossiyskə göndərmək qərara alındı. O gələndə şəhərin əsas meydanında çoxlu insan toplaşmışdı: sanki möcüzə sayəsində xilas olanlar, onların qohumları, həlak olanların doğmaları, şəhər sakinləri, başqa yerlərdən gələnlər... Bu, ümumi kədərin birləşdirdiyi insanların qüssəli, faciəli toplanışı idi. Əliyev buraya gələndə izdihamda canlanma başlandı. Həyəcanlanmış bir kişi kütlə arasından tribunaya yaxınlaşmağa çalışırdı. Əliyev bilirdi: insanları sakitləşdirmək, onların hər biri ilə söhbət etmək lazımdır. Qırıq-qırıq izahatlardan məlum oldu ki, bu kişinin qızı həlak olub, bir il əvvəl isə arvadı vəfat edib. İndi isə bürokratlıq və biganəlik üzündən ona qızını arvadının yanında dəfn etməyə icazə vermirdilər. Əliyev dərhal müvafiq göstəriş verdi: "Bütün problemləri həll etməli! Adamlara kömək etməli! Təqsirkarları cəzalandırmalı! Heç kəs məsuliyyətdən kənarda qalmamalıdır!" Belə adamlar yüzlərlə idi.

Mitinqdən sonra keçirilən müşavirədə "Naximov"un sərnişinlərinin həlak olması barədə məlumatlardan biri Əliyevin gözünə sataşdı. Həmin məlumatda ölümün səbəbi qrafasında "batma" sözü yazılmışdı.

– Siz burada nə yazıldığını başa düşürsünüzmü? – deyə Əliyev məmurlardan birinə müraciət etdi.
– Bir neçə il keçəcək və həlak olmuş bu kişinin arvadı kömək və ya müavinət üçün müraciət edəndə bürokratın biri ona belə cavab verə bilər: "Sənə nə müavinət? Bəlkə, sənin ərin sərxoş olub suda batıb?! Hər yerdə ölümün səbəbini bu cür yazın: "Ölüm "Admiral Naximov" gəmisində faciə nəticəsində baş verib".

Məqalədə xüsusi vurğulanır ki, Heydər Əliyev insanları sevirdi, onlar da ona eyni münasibət bəsləyirdi. Müəllif qeyd edir ki, sovet dövründə onun respublikaya rəhbərlik etdiyi vaxtlarda Azərbaycanda yeni zavodlar, su anbarları, neft emalı müəssisələri, evlər, məktəb binaları, yəni sonralar ölkənin iqtisadiyyatının təməlini, əsasını, özəyini təşkil edən hər şey tikilirdi. Müəllif yazır: "Əliyev peşəkarları sevir və onları seçirdi. Çalışırdı ki, respublikanın ən yaxşı tələbələri Moskvanın, Leninqradın və Novosibirskin aparıcı ali məktəblərində təhsil alsınlar".

Yazıda Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin keçmiş baş katibi Mixail Qorbaçovun Heydər Əliyevə qısqanc münasibətindən də danışılır. Müəllif yazır: "Qorbaçov Heydər Əliyevin üzünə yalnız bir dəfə gülümsəmişdi, o da Heydər Əliyev pensiyaya çıxmaq barədə ərizəni imzalayanda. Qorbaçov sonralar Azərbaycanı xilas edən bu adamdan hakimiyyətə gəldiyi andan var gücü ilə yaxa qurtarmağa çalışırdı. Təkcə bu fakt Qorbaçovun kadrlarla bağlı qərarlarına hökm oxumağa yetər. ...Faciəli hadisələr Heydər Əliyev istefaya göndəriləndən sonra baş verdi. 1990-cı ilin yanvarına doğru Əliyevin taleyi kəskin dəyişdi. O, artıq həyat yoldaşını dəfn etmişdi, baş katibin isə münasibəti, sadəcə, soyuq deyildi, açıq-aşkar pis münasibət idi – şəxsi nəsə sezilirdi. Onda danışırdılar ki, Heydər Əliyevin nüfuzu o qədər yüksək idi ki, həm Brejnevin, həm də Andropovun ölümündən sonra çoxları nəhəng ölkənin Nazirlər Sovetinin sədri vəzifəsinə Heydər Əliyevi qoymaq istəyirdi. Bu da Qorbaçovu qıcıqlandırırdı. İsrarla deyirdilər ki, Qorbaçov ona ilişir və bunu paxıllığından edir. Axı, Heydər Əliyev həm peşəkarlığı, həm insani keyfiyyətləri, həm sözünün üstündə durmaq bacarığı, həm də işgüzarlıq baxımından baş katibdən əsaslı şəkildə fərqlənir".

N.Puşkova M.Qorbaçovu və H.Əliyevi müqayisə edərək yazır: "Qorbaçov effektli görünməyi, gözəl jestləri, camaat içində çıxış etməyi çox sevirdi. Sonralar onun bu keyfiyyəti hamını məyus etdi, insanların davamlı narazılığına səbəb oldu. "Çənəsini boş qoyub ölkəni bada verdi": xalqın Qorbaçovun hakimiyyətinə çıxardığı qəti hökm belə oldu. Heydər Əliyev isə onun tamam ziddi idi".

Müəllif Heydər Əliyevin özünün ucaltdığı Azərbaycanın – sürətlə inkişaf edən və istehsalın səmərəliliyinə görə ön yerlərə çıxmağa başlayan, doğumun artdığı çiçəklənən bir ölkənin Sovet İttifaqının mövcud olduğu son illərdə tədricən öz mövqelərini itirməsini ürəkağrısı ilə izləməsindən, onun 1990-cı ilin qanlı 20 Yanvar hadisələrinin sabahısı günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək çoxsaylı jurnalistlər qarşısında bəyanat verməsindən, bu cinayətin törədilməsinə görə Qorbaçovu açıq ittiham etməsindən söz açır. Məqalədə o da deyilir ki, müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikasının parlamentinin sədri seçilən Heydər Əliyev Azərbaycanda hökm sürən xaos və hərc-mərclik fonunda kiçik vətənini Bakıdan nə pul, nə də ərzaq almadan xilas etmək yollarını axtarırdı. Məqalədə deyilir: "O, İranın və Türkiyənin həmsərhəd vilayətlərindən həyati əhəmiyyətli təchizatlar barədə müqavilələri möcüzə sayəsində, öz nüfuzundan istifadə etməklə, onun şəxsiyyətinə olan inam sayəsində imzalamışdı. İradəsinin gücü, böyük təcrübəsi və işləmək bacarığı öz bəhrəsini verdi: Naxçıvan nəinki qurtuldu, ixtilafların və iqtidarsızlığın qalan Azərbaycanı silkələdiyi bir vaxtda o, güclənməyə başladı.

Sonra xalq Heydər Əliyevi Azərbaycanda hakimiyyətə çağıraraq ədaləti bərpa etdi".

Məqalə bu sözlərlə bitir: "Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Və yeni bir tarix – onun xilas etdiyi Azərbaycanın tarixi başlandı".

**AZƏRTAC**

# Payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə olunur, qarşıda duran vəzifələr müəyyənləşdirilir



***Şərur Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.***

Əvvəlcə rayon Kommunal Müəssisələr Kombinatının direktor əvəzi Əsəd Rzayev, Elektrik Şəbəkəsinin direktoru Mehman Tağıyev, Qaz İstismarı İdarəsinin rəisi Ələddin Məmmədov və Təhsil Şöbəsinin müdiri Zaur Həsənov çıxış edərək payız-qış mövsümünə hazırlığın vəziyyəti barədə məlumat veriblər.

Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov məruzə ilə çıxış edərək bildirib ki, son 20 ildə həyata keçirilən uğurlu tədbirlərin nəticəsində muxtar respublikamızın bütün bölgələri, o cümlədən Şərur rayonu dayanıqlı elektrik enerjisi və təbii qazla fasiləsiz təmin olunur.

Hazırda 82 idarə və təşkilat, 41 təhsil, 40 tibb və 71 mədəniyyət müəssisəsi, rayon mərkəzindəki 17 çoxmərtəbəli yaşayış binası payız-qış aylarında qazla işləyən istilik sistemi ilə qızdırılır. Geniş şəkildə abadlıq və quruculuq işləri aparılan Axaməd, Kürçülü, Oğlanqala və Yuxarı Yaycı kəndlərindəki yeni sosial obyektlərdə, tikilməkdə olan Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbdə, Fizika-Riyaziyyat Təmayüllü Liseydə də istilik sisteminin quraşdırılması nəzərdə tutulub.

Rayon İcra Hakimiyyətinin başçısı payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrdən danışaraq bildirib ki, əvvəlki illərdə olduğu kimi, bu mövsüm də başlayana kimi transformator yarımstansiyalarının texniki baxışdan keçirilməsi təmin edilməli, istismara yararsız, standartlara uyğun gəlməyən, bir çox hallarda qəzalara səbəb olan elektrik avadanlıq və xətlərinin yenilənməsi diqqət mərkəzində saxlanmalıdır. Payız-qış mövsümündə rayonun elektrik enerjisinə gündəlik tələbatı, təxminən, 160 min, aylıq enerji sərfiyyatı isə 4 milyon 800 min kilovat-saata yaxındır. Enerji sahəsində işləri daha da yaxşılaşdırmaq üçün əlavə tədbirlər müəyyənləşdirilməli və icrası təmin olunmalıdır.

Mövsümə tam hazırlıqlı olmaq üçün qısa vaxt ərzində qaz təchizatı sistemində də müəyyən zəruri tədbirlər görülməli, ortaya çıxan nasazlıqlar təcili aradan qaldırılmalı, sayğacdankənar istifadənin qarşısı alınmalı, yaradılmış mal-material ehtiyatlarından səmərəli istifadə edilməlidir. Qış aylarında rayon üzrə gündəlik mavi qaz sərfiyyatı, təxminən, 98 min kubmetrə çatır və əhalinin istiliklə təminatı Qaz İstismarı İdarəsinin işini necə qurmasından xeyli dərəcədə asılıdır. Ona görə də idarənin kollektivi payız-qış mövsümünə ciddi hazırlaşmalı, vaxtında lazımi avadanlıq ehtiyatı yaradılmalı, rayonun dağ və sərhəd kəndlərinin mavi qazla fasiləsiz təminatına nəzarət gücləndirilməlidir.

Qeyd olunub ki, son illər tikilən, yaxud əsaslı şəkildə yenidən qurulan təhsil, səhiyyə və mədəniyyət müəssisələri, eləcə də digər təşkilatlar payız-qış mövsümündə mərkəzləşdirilmiş qazanxanalar vasitəsilə qızdırılır. Hazırda rayonda 177 ədəd belə qazanxana mövcuddur. Qazanxanalarda işləmək üçün əvvəlcədən ixtisaslı mütəxəssislər hazırlanmalı, bu sahədə Şərur Texniki Peşə və Sürücülük Məktəbinin imkanlarından istifadə olunmalıdır.

İcra başçısı bildirib ki, rayondakı mərkəzləşdirilmiş istilik sistemi olmayan müəssisələrin tələbatı öyrənilib və bu müəssisələrin, ümumilikdə, 104 min 640 litr ağ neftə, 289 kvadratmetr şüşəyə, 380 ədəd şiferə, 574 metr polietilen örtüyə ehtiyacı olduğu müəyyən edilib. Müvafiq təşkilatların rəhbərləri ayrılacaq yanacağın və digər avadanlıqların vaxtında gətirilməsini təmin etməlidirlər. Bundan əlavə, bağçılıq, tərəvəzçilik, heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatları üçün lazım olan dərmanların və digər ehtiyatların yaradılmasına, xəstəliklərə qarşı profilaktik mübarizə tədbirlərinin gücləndirilməsinə diqqət artırılmalıdır. Rayon Rabitə İdarəsi isə əhaliyə payız-qış mövsümündə rabitə xidmətinin lazımi səviyyədə qurulması üçün tədbirlər müəyyənləşdirib həyata keçirməli, bunun üçün kifayət qədər mal-material ehtiyatı yaradılmalı, xətt təsərrüfatının etibarlılığı təmin edilməlidir.

İbrahim Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin vaxtında icrası üçün kifayət qədər imkanların olduğunu bildirib və bu imkanlardan səmərəli istifadənin zəruriliyini qeyd edib.

***2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Kəngərli rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov məruzə ilə çıxış edib.***

Məruzəçi bildirib ki, bu gün ölkəmizin iqtisadi inkişafı, həyata keçirilən tədbirlər əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsinə imkan verir. Blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasında da ilin bütün fəsillərində əhali dayanıqlı elektrik enerjisi və təbii qazla təmin olunur.



Qeyd olunub ki, rayon üzrə 44 fərdi qazanxana, 3 kombi istilik sistemi mövcuddur. Bu il abadlıq-quruculuq işləri aparılan Yurdçu kəndində yaradılan yeni sosial obyektlər də müasir istilik sistemi ilə işləyəcəkdir. Qış mövsümündə rayonun gündəlik enerji sərfi, təxminən, 50 min kv/saat, aylıq enerji sərfi isə 1 milyon 500 min kv/saata yaxındır. Enerji sahəsində işləri yaxşılaşdırmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar tədbirlər müəyyənləşdirilməli və onların həyata keçirilməsi təmin edilməlidir.

Rayonun qış aylarında təbii qaza gündəlik ehtiyacı 72 min kubmetr, aylıq qaz sərfi isə 2 milyon 180 min kubmetrə yaxındır. Əhalinin qış aylarında istiliklə təminatı qaz istismarı işçilərinin öz işlərini necə qurmasından asılıdır. Ona görə də Qaz İstismarı İdarəsinin işçiləri payız-qış mövsümünə ciddi hazırlaşmalıdırlar. Lazımi avadanlıq ehtiyatı yaradılmalı, bu baxımdan rayonun kəndlərinə nəzarət gücləndirilməlidir. Qaz İstismarı İdarəsi, eləcə də rayon Elektrik Şəbəkəsi qış mövsümünü problemsiz başa vurmaq üçün öz işlərini digər təşkilatlarla əlaqəli şəkildə qurmalıdırlar. Elektrik və qaz təsərrüfatında mövcud vəziyyət tamamilə öyrənilməli, aşkar edilən nöqsanlar planlı şəkildə aradan qaldırılmalıdır. Hər bir qazanxana mütəxəssislər tərəfindən yoxlanılmalı, saz vəziyyəti haqqında akt tərtib edilərək ətraflı məlumat verilməlidir.

İcra başçısı bildirib ki, payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin fasiləsiz fəaliyyəti təmin olunmalı, qazanxanaların işinə nəzarət artırılmalı, Qıvraq qəsəbəsində və kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin dərman preparatları ilə təminatı daha da gücləndirilməli, sosial obyektlərin mühafizəsinə diqqət artırılmalı, dövlət əmlakları qorunmalıdır.

Son dövrlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi qayğısı sayəsində rayonlarda soyuducu anbarlar yaradılıb. Kəngərli rayonunda da 300 ton tutumu olan belə anbar mövcuddur. Bu günədək soyuducu anbara 60 ton kartof, 50 ton soğan tədarük edilib. Bu işlər bundan sonra da davam etdirilməli, rayon İcra Hakimiyyətinin müvafiq şöbələri soyuducu anbara meyvə və tərəvəzin tədarükünü nəzarətdə saxlamalı, bu işdə sahibkarlara əməli köməklik göstərməlidirlər. Bununla yanaşı, rayon Rabitə İdarəsi əhaliyə qış aylarında keyfiyyətli xidmət göstərilməsi üçün tələbat həcmində mal-material ehtiyatı yaratmalı, xətt təsərrüfatının etibarlılığı daha da artırılmalıdır. Yaşayış evlərinin qızdırılması ilə bağlı qaldırılmış hər bir məsələyə ciddi reaksiya verilməli, kimsəsiz tənha yaşayan vətəndaşlar daim nəzarətdə saxlanılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Sədərək rayonunda da payız-qış mövsümünə hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib.***

Müşavirəni giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq məruzə edib. Bildirilib ki, son illər muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunda da əhalinin elektrik enerjisinə, mavi yanacağa, istiliyə və içməli suya olan tələbatı tam ödənilib. Bu isə payız-qış mövsümünü problemsiz keçirməyə zəmin yaradır.

Qeyd olunub ki, rayon Elektrik Şəbəkəsi tərəfindən payız-qış mövsümünə hazırlıqla bağlı müəyyən işlər görülüb, tələb olunan mal-material və avadanlıqların ehtiyatı yaradılıb. Lakin görülən işlərlə kifayətlənmək olmaz. Elektrik təsərrüfatının baş verə biləcək təbiət hadisələrinə davamlılığını artırmaq üçün tədbirlər görülməli, yaşayış məntəqələrində mövcud olan transformator yarımstansiyalarında nəzarət yoxlamaları aparılmalıdır.



Rayonda yaşayış evlərindən başqa, 59 təşkilat, 19 özəl müəssisə və 4 orta məktəb təbii qazdan istifadə edilərək qızdırılır. Payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün mütəmadi olaraq qaz təsərrüfatına texniki baxış keçirilməli, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə diqqət mərkəzində saxlanılmalıdır.

Bildirilib ki, növbəti payız-qış mövsümündə qazanxanaların fasiləsiz işləməsinə diqqət artırılmalı, qış mövsümündə qazanxanalarda dayanmaların təkrarlanmaması məqsədilə mütəmadi texniki nəzarət həyata keçirilməlidir. Aidiyyəti müəssisə və təşkilatlar oktyabr ayının 15-dək inzibati binalardakı qazanxanalarda texniki baxışı başa çatdırmalı, qazanxanalarda elektrik enerjisi, təbii qaz, su təchizatı və digər məsələlərlə bağlı çatışmazlıqları aradan qaldırmalıdırlar.

Məruzə ətrafında rayon Təhsil Şöbəsinin əməkdaşı Yalçın Bayramzadənin, Elektrik Şəbəkəsinin direktoru Nazim Hüseynovun, Qaz İstismarı İdarəsinin rəisi İlqar Əliyevin çıxışları olub. Yol Təmir-İstismar Sahəsinin və Kommunal Müəssisələr Kombinatının rəhbərləri görülən işlərlə bağlı onlara ünvanlanan sualları cavablandırıblar.

Müşavirəyə yekun vuran rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov payız-qış mövsümünü heç bir çətinlik çəkmədən başa vurmaq üçün rayonunun kifayət qədər potensialı olduğunu bildirib və bu potensialdan səmərəli istifadə edilməsinin vacibliyini müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

**Xəbərlər şöbəsi**

# Dəmir yolu nəqliyyatı üzrə xidmət nümunəvi təşkil olunub



*“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti avqust ayında da işin səmərəli təşkilini diqqət mərkəzində saxlamışdır. Ötən ay dəmir yolu nəqliyyatı vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarına 11 min 537 ton yük daşınmış, 10 min 601 sərnişin xidmətdən istifadə etmişdir.*

Daşımaların vaxtında və fasiləsiz təşkili məqsədilə nəqliyyat vasitələrinin texniki sazlığına nəzarət gücləndirilmiş, Culfa lokomotiv deposunda elektrovozlar 6 dəfə texniki baxışdan keçirilmiş, 1 elektrovoz, 1 manevr teplovozu və 31 vaqon cari təmir edilmişdir. Sərnişinlərin rahat gediş-gəlişini təmin etmək üçün sərnişin vaqonlarında profilaktik tədbirlər həyata keçirilmiş, istilik sistemi bərpa olunan 1 vaqonda əsaslı təmir işləri aparılmışdır. Nəqliyyat vasitələri ilə yanaşı, yol infrastrukturunun da hərəkətə davamlılığı təmin edilir. İnfrastruktur İdarəsinin kollektivi mütəmadi olaraq yollara baxış keçirmiş, süni tikililər, küvetlər və yol yataqları tullantılardan təmizlənmiş, uçurum gözlənilən yerlərdə müvafiq təhlükəsizlik tədbirləri görülmüşdür.

Ay ərzində stansiya və yolların elektrik, işıqlandırma və işarəvermə sistemlərinin fasiləsiz işi, radiorabitə əlaqəsinin dayanıqlılığı təmin edilmişdir. Bu məqsədlə bütün növ elektrikötürücü hava xətlərində və kontakt şəbəkələrində təmir işləri aparılmış, işıqforlara müntəzəm baxış keçirilmiş, inzibati, texniki və yardımçı binalarda elektrik xətlərinin vəziyyəti yoxlanılaraq nasazlıqlar aradan qaldırılmışdır. Həmçinin Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad yol sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir. Payız-qış mövsümünə hazırlıqla əlaqədar inzibati və yardımçı binalara baxış keçirilmiş, Nehrəm və Qarabörk təhlükəsizlik komandalarının dam örtükləri dəyişdirilmişdir.

Dəmiryolçular yollarda hərəkətin fasiləsiz təşkili üçün üzərlərinə düşən işləri bundan sonra da layiqincə yerinə yetirəcəklər.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti***

***Muxtar respublikada elektroenergetika təsərrüfatının müasirləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər daim diqqət mərkəzində saxlanılır. Xüsusilə payız-qış mövsümündə əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin olunması istiqamətində hər il müvafiq tədbirlər görülür.***

# Energetiklər payız-qış mövsümünə hazırlıq işi görürlər

Bu işlər avqust ayında da davam etdirilmişdir. Bu dövrdə energetiklər elektrik stansiyalarında, elektrik verilişi xətlərində, transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparıb, yeni transformator yarımstansiyalarının quraşdırılması, elektrik verilişi xətlərinin çəkilişi davam etdirilib. Kəngərli rayonu ərazisində tikilən tikinti materialları zavodunun elektrik təchizatı üçün yeni 110/10 kilovoltluq yarımstansiya tikilib, burada 10 meqavolt-amper gücündə 110/10 kilovoltluq transformator, eleqaz açarı, ayırıcı, boşaldıcı, eləcə də 4 ədəd 10 kilovoltluq eleqaz açarlı hücrə quraşdırılıb, 300 metr uzunluğunda elektrik verilişi xətti çəkilib. Hazırda obyektdə sınaq-sazlama işləri görülür.

Ötən ay Günəş elektrik stansiyasının tikintisi də davam etdirilib. Stansiyada quraşdırılacaq kabel məmulatlarının və günəş panellərinin xeyli hissəsi alınıb gətirilib. Hazırda ərazidə metal konstruksiyaların quraşdırılması, stansiyadaxili yolların çəkilməsi işləri həyata keçirilir. Ümumiyyətlə, ötən ay muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 5 yeni transformator yarımstansiyası qoyulub, 5,5 kilometr uzunluqlu yeni elektrik verilişi xətti çəkilib, 1 kilometr məsafədə hava elektrik verilişi xətti kabellə əvəzlənib. Bu dövrdə 62 yarımstansiya, eləcə də 8 transformator əsaslı təmir olunub.

Muxtar respublikada istifadə olunan elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq və enerji dəyərinin toplanmasında itkiyə yol verməmək üçün elektron sayğacların tətbiqinə başlanılıb. Avqust ayının sonunadək Naxçıvan şəhərində 4100 ədəd smartkarttipli ön ödənişli rəqəmsal elektron sayğac quraşdırılıb, poçt məntəqələrində kart yükləmə qurğuları qoyulub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunmuş, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılmış, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılmış, informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılmışdır.***

# DSMF tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən yaradılmış 20 adda elektron xidmət fondun ***www.dsmf.nakhchivan.az*** internet səhifəsinə yerləşdirilmişdir. Fond tərəfindən göstərilən elektron xidmətlər pensiyaçılar, sığortaedənlər və sığortaolunanlar üzrə olmaqla, üç istiqamətdə aparılır. Hazırda fond tərəfindən əhaliyə 10 növ elektron xidmət göstərilir. Nəzərdə tutulan digər elektron xidmətlərin istifadəyə verilməsi üçün hazırlıq işləri görülür. Bu xidmətlərin reqlamenti və tələb olunan sənədlərin siyahısı hazırlanaraq fondun internet səhifəsinə yerləşdirilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalına Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətləri inteqrə edilmişdir.

Hazırda muxtar respublika üzrə sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 157 min nəfərdən çoxdur. Fərdi uçotla bağlı yaradılmış bazadan istifadə etməklə sosial sığorta iştirakçıları haqqında dəqiq məlumat almaq mümkündür. Bu da, öz növbəsində, sığortaolunanın pensiyaya çıxacağı haqqında dəqiq proqnozların verilməsinə, sığortaolunanlar və sığortaedənlər tərəfindən ödənilməli və ödənilmiş olan məcburi dövlət sosial sığorta haqlarına daha asan və çox vaxt sərf etmədən nəzarət etməyə imkan verir. Məlumat üçün bildirək ki, bu sistem avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidin bir hissəsi idi.

Modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruridir. Çoxsaylı pensiyaçı və sığortaolunanlara müasir əsaslarla xidmətin təşkili məsələlərinin həllində Dövlət Sosial Müdafiə Fondu öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Hazırda Naxçıvan Muxtar Respublikasında müasir avtomatlaşmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya-kommunikasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görülməkdədir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun vətəndaşlara xidmət göstərdiyi elektron xidmətlərindən biri "Sığortaolunanlara məlumatın verilməsi" xidmətidir. Bu xidmət vasitəsilə sığortaolunanlar istənilən yerdən fərdi şəxsi hesablarında əks olunan pensiya kapitalı, məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığortahaqqı barədə məlumatları əldə edə bilərlər. "Sığortaolunanlara məlumatların verilməsi" elektron xidmətinin istifadəyə verilməsi avtomatlaşdırılmış pensiya təyinatına keçidin əsas elementidir. Bütün




bunlar sistemli dəyişikliklərdir və inzibati nəzarətin ictimai nəzarətlə əvəzlənməsini şərtləndirir.

O da vurğulanmalıdır ki, bu xidmətdən istifadə etmək üçün elektron imza və ya elektron hökumət portalı tərəfindən verilmiş istifadəçi adı və şifrəsi olmalıdır. Burada vətəndaş 2006-cı ilə qədər sığorta stajı, 2006-cı ildən 2015-ci ilədək pensiya kapitalı barədə məlumat əldə edə bilər. Bu xidmətdə sığortaolunana iki növ məlumatın əldə edilməsi təklif edilir: sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı; məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığortahaqqı barədə məlumatın əldə edilməsi.

"Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı" bölməsində sığortaolunanın soyadı, adı, atasının adı, sosial sığorta nömrəsi və fərdi identifikasiya nömrəsi göstərilməklə, onun 1 yanvar 2006-cı il tarixə qazanılmış pensiya kapitalı barədə və 1 yanvar 2006-cı ildən ödədiyi məcburi dövlət sosial sığortahaqqı və fərdi şəxsi hesabında toplanan pensiya kapitalı barədə, eləcə də illər üzrə istehlak qiymətləri indeksinin səviyyəsi barədə məlumatlar təqdim olunur.

"Məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığortahaqqı barədə məlumatın əldə edilməsi" bölməsində isə sığortaolunanın soyadı, adı, atasının adı, sosial sığorta nömrəsi və fərdi identifikasiya nömrəsi göstərilməklə, seçilmiş il üzrə sığortaolunanın, sığortaedənin(lərin) adı, VÖEN-i, Dövlət Sosial Müdafiə Fondundakı uçot nömrəsi, eləcə də həmin il ərzində məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığortahaqqı barədə məlumatlar təqdim olunur. Onu da qeyd etmək lazımdır ki, vətəndaşın fərdi hesabında olan pensiya kapitalı illik inflyasiya faizlərinə uyğun olaraq artırılır.

Dövlət Sosial Müdafiə Fondunun vətəndaşlara xidmət göstərdiyi elektron xidmətlərdən biri də "Sığortaolunanın onlayn uçota alınması" xidmətidir. Qeyd etmək lazımdır ki, bu xidmətdən yalnız Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən verilmiş möhür hüququ olan elektron imza sahibləri istifadə edə bilərlər. Fondun əhaliyə təqdim etdiyi "Sığortaolunanın onlayn uçota alınması" adlı xidməti vasitəsilə sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesini elektron qaydada həyata keçirmək mümkündür. Bu xidmət vasitəsilə hər bir sığortaedən öz ofisində, kənara çıxmadan birbaşa elektron qaydada müraciət etməklə sığortaolunanlar üçün sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi imkanı əldə edir. Sözügedən xidmət sayəsində vətəndaşların fərdi uçot sistemində uçota alınaraq sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesi elektron qaydada həyata keçirilir. Ümumiyyətlə, "Sığortaolunanın onlayn uçota alınması" xidməti sığortaedənlərlə DSMF orqanları arasında münasibətlərin sadələşdirilməsinə imkan yaradır və sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir. Elektron xidmətdən istifadə üçün sığortaedən həm fondun internet səhifəsi, həm də "Elektron hökumət" portalı vasitəsilə "Sığortaolunanın onlayn uçota alınması" elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş ərizə DSMF orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir. Sığortaedən tərəfindən elektron formada göndərilmiş elektron ərizə formalarına DSMF tərəfindən baxılır. Təqdim edilmiş elektron ərizə formaları yoxlanıldıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır və sosial sığorta nömrəsi əks olunan dövlət sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilir. Eyni zamanda əgər vətəndaş sığortaolunan kimi fərdi uçot sistemində qeydiyyatdadırsa, bu zaman imtina haqqında informasiya əks olunmaqla sığortaolunanın nə zaman və hansı sığortaedən tərəfindən uçota alınması ilə bağlı xüsusi pəncərə açılır. Bu prosesin tam elektronlaşdırılması həm kağız daşıyıcılarından istifadənin, həm vaxt itkisinin aradan qalxmasına, həm də şəffaflığın təmin olunmasına gətirib çıxarmışdır.

Sığorta-pensiya sisteminin inkişafına göstərilən yüksək diqqət və qayğı sayəsində muxtar respublikamızda sığorta-pensiya sisteminin yüksək səviyyədə qurulması əhalinin bu sistemin üstünlüklərindən maksimum yararlanmasına şərait yaratmışdır. Elektron xidmət vasitəsilə sığortaolunanların fərdi şəxsi hesablarına toplanan pensiya kapitalı barədə məlumat əldə edə bilməsinin təmin edilməsi də bu istiqamətdəki uğurlu addımlardan biridir.

Beləliklə, artıq istənilən sığortaolunan Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanı əldə edir. Bu sistem şəffaflığın daha da artırılmasına gətirib çıxarmaqla yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də sığortaolunanların gələcəkdə pensiya hüququ yarandıqda vaxt itirmədən avtomatlaşdırılmış pensiya təyinatı xidmətinin üstünlüklərindən maksimum yararlanmasına imkan verəcəkdir. Başqa sözlə, hər bir işləyən özü üçün sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya təminatı əldə etmək imkanına malik olacaqdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bundan sonra da əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunmasını daim diqqət mərkəzində saxlayacaq və qarşıya qoyulmuş digər vəzifələrin layiqincə icra olunmasını təmin edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Xaraba Gilan arxeoloji ekspedisiyasının hesabat iclası keçirilib

***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində keçirilmiş hesabat iclasını giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.***



Akademik Naxçıvan Muxtar Respublikasında aparılan tədqiqatlarla bağlı geniş məlumat verərək muxtar respublikanın tarixinin öyrənilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini deyib. O bildirib ki, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Xaraba Gilan arxeoloji ekspedisiyası 2015-ci ildə Plovdağ arxeoloji abidələr kompleksində (İkinci nekropolda), Dəlmə qalasında və Xaraba Gilan orta əsrlər şəhər yerində arxeoloji qazıntı işləri aparıb və tarixi əhəmiyyət daşıyan bir çox məlumatlar əldə olunub. Qazıntı işlərində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları da yaxından iştirak ediblər.

İclasda ekspedisiyanın rəhbəri, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli çıxış edərək əldə olunan yeniliklər haqqında geniş məlumat verib.

Qeyd olunub ki, İkinci Plovdağ nekropolunda II və V qazıntı sahələrində tədqiqatlar davam etdirilib. II qazıntı sahəsində – 100 kvadratmetr sahədə 50-70 santimetr Orta Tunc dövrü mədəni təbəqəsi altında fərdi yaşayış evi, plitə daşlardan qurulmuş dördbucaqlı uşaq qəbri və təsərrüfat quyusu aşkara çıxarılıb.

Ekspedisiyanın tədqiq etdiyi ikinci abidə ilk orta əsrlər dövrünə aid Dəlmə qalasıdır. Buradakı tədqiqat işləri başa çatdırılıb və qalanın qərb divarından 30 metr aşağıda, qala yerləşən dağın ətəyində iki kürə tədqiq olunub. Tədqiq olunan üçüncü abidə isə orta əsrlərə aid Xaraba Gilan şəhər yeridir. Burada bir çox şirli, şirsiz gil qablar, təsərrüfat küpləri və əksəriyyəti Hülakülər dövrünə aid olan mis sikkələr tapılıb.

Tədqiqatçılar iclasda iştirak edənlərin suallarını cavablandırıblar.

İclasa yekun vuran AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev əldə olunan qiymətli məlumatların Naxçıvan Muxtar Respublikasının tarixinin, etnoqrafiyasının öyrənilməsində böyük əhəmiyyət daşıdığını bildirib.

**✍ Nərgiz İSMAYILOVA**

# Əhalinin sağlamlığının qorunması diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi avqust ayında öz işini təsdiq olunmuş iş və tədbirlər planına uyğun quraraq əhalinin sağlamlığının etibarlı şəkildə qorunması istiqamətində fəaliyyətini davam etdirmişdir.***

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı"na uyğun olaraq, belə xəstələrin zəruri dərman preparatları ilə davamlı təminatı avqust ayında da davam etdirilmiş, Azərbaycan Respublikası Mirqasımov adına Klinik Xəstəxanası dağınıq skleroz xəstələrinin dərmanla təchizat komissiyası tərəfindən muxtar respublikamızda yaşayan xəstələr üçün zəruri dərman preparatları gətirilmişdir.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin heyəti və Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi tərəfindən 14 nəfərdə açıq ürək əməliyyatı, 26 nəfərdə müayinələr aparılmışdır.

Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 20 nəfərdə müayinə, 11 nəfərdə əməliyyat yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirmişdir.

Talassemiya və hemofiliya xəstələrinin qanla təminatını yaxşılaşdırmaq üçün Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti tərəfindən Diaqnostika-Müalicə Mərkəzində qanvermə aksiyası keçirilmiş, 26 nəfərdən 7,8 litr qan tədarük edilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari il üçün iş planına uyğun olaraq, həkim briqadaları tərəfindən yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilmiş, Ordubad, Şahbuz rayonlarının ərazisində olan obalarda heyvandarlar və ailələrinin kütləvi tibbi müayinəsi aparılmışdır.

Tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə avqust ayında Babək rayon Hacıvar, Zeynəddin, Yarımca, Qahab, Sirab, Kültəpə, Kərimbəyli həkim ambulatoriyalarına, Şəkərabad, Badaşqan feldşer-mama məntəqələrinə gedilmiş, mövcud nöqsanların yerindəcə həll olunması üçün tapşırıqlar verilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinə uyğun olaraq, Naxçıvan Tibb Kollecinin 4 müəllim və 16 tələbədən ibarət heyəti avqustun 1-dən 16-dək Türkiyə Respublikası Ərzurum Atatürk Universitetində on beş gün müddətinə təcrübə kursu keçmiş, Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova Türkiyə Respublikasında keçirilən "Diş və ağız boşluğunun estetika və cərrahiyyəsi" mövzusunda seminar-kursda iştirak etmişdir.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə avqust ayı ərzində muxtar respublika üzrə 7 nəfər Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 21 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 14 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Parlament seçkiləri – 2015

# Seçki marafonu

## *1 noyabr 2015-ci il Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür*

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə deputatlığa namizədliklərin irəli sürülməsi prosesi davam edir.

Artıq öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürən vətəndaşlar muxtar respublikada dairə seçki komissiyalarına tələb olunan sənədləri təqdim ediblər. Namizədlərə və ya onların səlahiyyətli nümayəndələrinə namizədliklərinin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərarlar təqdim ediləndən sonra yerlərdə imza toplamaq üçün onlara imza vərəqələri verilmişdir. Hazırda muxtar respublikanın bütün dairələri üzrə imza toplamaq kampaniyası aparılır.

İmza toplamaq məqsədilə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ilə tənzimlənir.

**Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsinə dair tələblər aşağıdakılardır:**

• Dairə seçki komissiyası tərəfindən deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə namizədin müdafiəsi məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməsi deputatlığa namizədin irəli sürülməsini təsdiq edən qərarın qəbul edildiyi gündən başlanır.

• Namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələri verilərkən hər bir imza vərəqəsinin yuxarı sağ küncü dairə seçki komissiyasının möhürü ilə təsdiqlənməlidir.

• Namizədə və ya səlahiyyətli nümayəndəyə imza vərəqələri verilərkən 2 nüsxədən ibarət akt tərtib edilməlidir. Tərtib olunmuş akt dairə seçki komissiyasının sədri, namizəd və ya səlahiyyətli nümayəndə tərəfindən imzalanır və dairə seçki komissiyasının möhürü ilə təsdiqlənir.

• İmza vərəqələrinin qəbul edilməsi haqqında aktda namizədin və ya səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı, verilən imza vərəqələrinin sayı və forması, habelə digər məlumatlar göstərilməlidir.

• Tərtib edilmiş akt imzalanaraq möhürləndikdən sonra onun bir nüsxəsi dairə seçki komissiyasında qalır. Digər nüsxəsi isə verilən imza vərəqələri ilə birlikdə namizədə və ya səlahiyyətli nümayəndəyə təqdim edilir.

**Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları**

Təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim olunması qaydaları Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 56-58-ci, 147-ci maddələri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 52-54-cü maddələri ilə tənzimlənir.

**Namizədin müdafiəsi üçün seçici imzalarının toplanması:**

• Öz təşəbbüsü ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və ya siyasi partiya blokları tərəfindən irəli sürülən namizədlərin müdafiəsi məqsədilə seçici imzalarının toplanması müvafiq seçki komissiyası tərəfindən namizədlərə və ya səlahiyyətli nümayəndələrə deputatlığa namizədin irəli sürülməsini təsdiq edən qərarın təqdim edildiyi gündən başlanır.

• Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədin müdafiəsi üçün onun namizədliyinin irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə isə 300 imzası toplanmalıdır.

• Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydə alınmasından imtina üçün əsas ola bilər.

• Azərbaycan Respublikasının aktiv seçki hüququ olan hər bir vətəndaşı deputatlığa namizədin müdafiəsi üçün imza vərəqəsinə imza etmək hüququna malikdir. Seçici yaşadığı seçki dairəsinin ərazisində namizədliyi irəli sürülmüş bir neçə namizədin müdafiəsi üçün imza edə bilər.

• Seçici imzalarını Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan vətəndaşı toplaya bilər. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilər. Belə işin haqqı yalnız namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu hesabına ödənilə bilər.

• Seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza qoyulması tarixini göstərir. İmza vərəqəsində seçiciyə aid məlumatları imza toplayan şəxs seçicinin razılığı ilə onun əvəzinə doldura bilər (imza istisna olmaqla). İmza etmək hüququ yalnız seçiciyə məxsusdur. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.

• Seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

**İmza etmək hüququ yalnız seçiciyə məxsusdur**

• Deputatlığa namizədin müdafiəsi üçün imza etmək könüllüdür. Seçicinin hər hansı bir vasitə ilə (aldatma, fiziki və ya psixi zor tətbiqetmə, yaxud bu cür zor tətbiq etmək hədəsi ilə seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq və sair) bu hüququnun realizə olunmasına mane olmaq qadağandır və bu cür hərəkətlər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

• Namizəd özü və təşəbbüs qrupu tərəfindən irəli sürülübsə, imza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və namizəd tərəfindən imzalanır. İmza toplamış şəxs imza vərəqəsində imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir.

• Namizəd siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülübsə, imza toplandıqdan sonra imza vərəqəsi namizəd, imza toplayan şəxs və siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. İmza toplamış şəxs imza vərəqəsində imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir, müvafiq səlahiyyətli nümayəndə isə soyadını, adını, atasının adını və imza qoyulması tarixini göstərir.

• Namizədin irəli sürülməsinin təşəbbüsçüləri, namizədin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzalarının sayını hesablayır, seçici imzalarının toplanması haqqında yekun protokolu tərtib edir və imzalayırlar.

• Dairə seçki komissiyasına təqdim edilən imza vərəqələri ardıcıl olaraq nömrələnməli və qovluq formasında səhifələnməlidir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

---

***Bədii oyma dekorativ-tətbiqi sənətin ən qədim və geniş yayılmış növlərindən biridir. Daş, ağac, sümük və başqa materiallar üzərində işlənilir. Ölkəmizdə oyma, yonma, cızma üsulu ilə sənət əsərlərinin yaradılması ənənəsi tarixən mövcud olub. Əcdadlarımızın hələ qədim dövrlərdə daş üzərində oyub-cızdıqları rəsmlər, fiqurlar buna sübutdur. Naxçıvan Muxtar Respublikasının ən qədim yaşayış məskənlərindən biri olan Gəmiqayada daş üzərində olan oymalar bədii oyma sənətinin ilkin nümunələri kimi qəbul edilir.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Bədii oyma sənəti: insan əli ilə yaradılan möcüzə

## *Naxçıvanda yaşadılan və inkişaf etdirilən bu sənətin qədim diyarda istedadlı davamçıları var*

Bədii oyma sənətinin bugünkü davamçıları təbiəti ən yaxşı sənətkar adlandırırlar. Çünki cansız daş parçası da, yamyaşıl, naxış-naxış yarpaqlardan süzülüb düşən bir yağış damlası da, yerdən səmaya doğru boy atan ağac da böyük bir sənət incisi kimi insan oğlunu daim valeh edir. Naxçıvanlı Akif Həsənov da bu incəlikləri dərindən duyan, quru ağacdan ustalıqla istifadə edərək əsərlər yaradan bir xalq sənətkarı, ağacoyma ustasıdır. Bu gün Naxçıvan şəhərində işıqlı, ağac ətri duyulan gözəl emalatxanasında fəaliyyət göstərir.

Akif ustanın sözlərinə görə, ağaclarla işləmək, onlardan hər hansı bir sənət nümunəsi ərsəyə gətirmək o qədər də asan deyil. Necə deyərlər, yüz ölçüb bir biçməlisən. Ancaq ağac kimi mülayim, həssas, səxavətli, "sözəbaxan" digər material da tapmaq çətindir. Onun üzərində illərin buraxdığı izlərdən belə, naxış kimi istifadə etmək olar. Əsas odur ki, bu incəlikləri duyub tətbiq etməyi bacarasan.

2013-cü ilin noyabrında Naxçıvan Biznes Mərkəzində Akif ustanın əl işlərindən ibarət sərgi təşkil edilmişdi. Böyük maraqla qarşılanan sərgidə ustanın intarsiya, oyma, şəbəkə və xatəmkarlıq üsulu ilə hazırlanmış əl işləri yer almışdı. Qeyd edək ki, intarsiya nazik ağac lövhəciklərindən, yonqarlardan yığılmış mozaikadır. O, müxtəlifölçülü və müxtəlif növ ağacların bir-birinə keçirilməsi, yapışdırılması ilə quraşdırılır. İntarsiya texnikası ilə döşəmələr, divarlar, masalar və digər mebellər bəzədilir. Bu sənət hələ orta əsrlərdə Misirdə yaranıb. İntarsiya texnikası Siciliya və Əndəlus vasitəsilə Avropaya gəlib çatanadək artıq İslam dininin yayıldığı Şimali Afrikada xeyli təkmilləşmişdi. Daha sonra bu sənət Yunanıstanda, İtaliyada, Almaniyada, Hollandiyada, İngiltərədə geniş yayılmağa başladı.

İntarsiyanın da öz növləri var. Mozaika hissələri qabarıq və ya müstəvi ilə eyni səviyyədə qalan intarsiyalar mövcuddur. Akif usta deyir ki, intarsiya, oyma və şəbəkə üslubu ilə işləyəndə əlavə məmulatlar lazım olmur. Ancaq xatəmkarlıqda müxtəlif materiallardan istifadə etmək lazım gəlir. Latın dilində "təbəqə və qabıqla, mərmərlə örtürəm" mənasını verən xatəmkarlıq (inkrustasiya) dekorativ-tətbiqi sənətin özünəməxsus bir növü olmaqla əşyaların bəzədilməsində, onlara estetik görkəm verilməsində istifadə olunur. Bu prosesdə hər hansı səthə oyulub yerləşdirilən naxış və təsvirlərdə mərmər, keramika, metal, ağac, sədəf, mina və digər materiallar işlədilir. Onlar rənginə və digər xüsusiyyətlərinə görə fərqlənir. Yəni bu iş əlavə sərmayə və vaxt tələb edir. Akif usta da yaratdığı əsərlərdə yuxarıda sadalanan üsullara geniş yer verir.

Bədii oyma çətin sənətdir və insandan istedad, təmkin, böyük zəhmət, dəqiqlik, incəlik tələb edir. Bunlar kompleks şəkildə olanda yaxşı əsər meydana gəlir. Bu sənəti mənimsəmək üçün insan xəttatlıqdan, nəqqaşlıqdan, xarratlıqdan, rəssamlıqdan məlumatlı olmalı, bu incəsənət növlərini də mənimsəməlidir. Məsələn, ağac üzərinə yaxşı bir oyma naxış salmaq istəyirsənsə, onun eskizlərini də hazırlamalı, ölçülərini yaxşı bilməlisən.

Ordubad şəhərində yaşayan Cabir Cabbarov da bədii oyma sənətinin ustalarından biridir. Cabir ustanın əsərləri içərisində şəbəkə formalı oyma işləri xüsusilə diqqət çəkir. Naxçıvan şəhərindəki qədim Yusif Küseyir oğlu, Möminə xatın türbələrində işlədilən həndəsi şəbəkə növlərindən istifadə edərək bir çox sənət nümunəsi yaradan C.Cabbarov, həmçinin özünəməxsus orijinal şəbəkə formaları da hazırlayır. Onun estetik cəhətdən zərif əsərləri bədii oyma sənətinin müasir nümunələri kimi dəyərlidir.

Bədii oyma sənəti haqqında Cabir usta ilə həmsöhbət olduq. Dedi ki, bu sənətə könül verdiyi gündən sonra ağacları çox yaxşı tanıyır. Təcrübəsi sayəsində hansının nəyə daha çox yararlı olduğunu müəyyənləşdirə bilir. Ən çox qoz ağacından istifadə edir. Süni rənglərdən istifadə etməyi sevmir. İşlətdiyi ağaclar arasında fıstıq, tut, dağdağan, alma, ərik ağacları da var. Digər ağaclar yumşaq olduğundan onların üzərində səlis oyma işləmək mümkün deyil. Çünki tez sınır, xarab olurlar.

Cabir usta vurğulayır ki, bədii oyma çətin sənətdir. Gərək bir çox elmdən xəbərdar olasan, Şərq-Qərb memarlığını, sənət nümunələrini və milli dəyərləri tam mənimsəyəsən. Bu barədə danışan Cabir usta deyir: "Məsələn, mən Qərb memarlığı və heykəltəraşlığı ilə maraqlandım, onların müxtəlif sənət üslublarını mənimsədim, bundan sonra Şərq memarlığına rəğbətim daha da artdı. Çünki Şərq memarlığı daha dolğundur. Əslində, Qərb memarlığı ilə yaxından tanış olanda görürsən ki, qərblilər Şərq memarlığını özlərinə məxsus şəkildə mənimsəyib, özlərinə lazımlı şəkildə inkişaf etdiriblər. Avropa memarlığında bizdə olduğu qədər dəqiqlik yoxdur. Memar Əcəmi Naxçıvaninin yaratdığı dəqiqlik, özünəməxsusluq bu səbəbdən həmişə diqqət mərkəzində olacaq".

Bu gün bədii oyma sənəti digər sənət növləri kimi Naxçıvanda yaşadılır, inkişaf etdirilir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində müntəzəm olaraq ağac üzərində oyma sənəti üzrə ikiaylıq kurslar təşkil edilir. Bura sağlamlıq imkanları məhdud şəxslər də cəlb olunur. Kursları müvəffəqiyyətlə bitirənlər sosialyönümlü haqqıödənilən ictimai işlərə cəlb edilirlər. Bununla, həm qədim xalq sənəti yaşadılır, həm də sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqları təmin olunur.

**Rauf ƏLİYEV**

---


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 696